# Vətəni işıqlandıran...

(Əvvəli 6-cı səhifədə).

İsmayıl da qaranlıq günlərimizi öz canını qurban verərək aydınladanlardan oldu. Hər işdə özünü önə atmaq onun təbiətində var idi. Onu tanıyanların dili ilə desək, İsmayıl qorxmaz, comərd oğul idi. O qorxmazlığını döyüş meydanında da sübut etdi. İsmayıl Qurbanov Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə düşmənin amansız və qəfil gələn zərbəsinə qurban gedir. Hələ həyatın ona bəxş etdiyi, qarşıda onu gözləyən xoş günləri yaşamadan şəhidlik zirvəsinə ucalır 19 yaşında. Çox az yaşı olmasına baxmayaraq, İsmayılın ürəyindəki vətən sevgisi onu bu müqəddəs zirvəyə ucaltdı.

Döyüşlərdə göstərdiyi cəsurluq, mərdlik, xilaskarlıq nümunələrinə görə əsgər Qurbanov İsmayıl ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin Sərəncam ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şücaətə görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

Övlad həsrəti bir valideyni nə qədər yandırıb-yaxsa da, şəhadət elə məqamdır ki, onunla fəxr etməmək qeyri-mümkündür və daim onun varlığını hiss edirsən. Çünki şəhidlər ölmür. Onlar sadəcə cismən bizlərdən ayrılır. Hüsniyyə ana da nə qədər övladının yoxluğuna öyrəşə bilməsə də onunla hər daim fəxr etdiyini deyir. İgid İsmayılımız! Haqqa qovuşduğun 27 sentyabr gecəsində öz şəhadətinlə Vətən qarşısında övlad mənini təsdiq etməklə, əzmini, şücaətini göstərməklə torpağa, millətə olan əvəzsiz, sonsuz sevgini sübuta yetirdin. Bir zamanlar düşmən tapdağında olan torpaqlarımızda sənintək igid və qəhrəman oğulların qanı, canı bahasına bayrağımız yenidən dalğalandı. Yurd uğrunda mərdi-mərdanə mübarizələrə atılan sənintək şəhid oğulların ucaltdığı şanlı bayrağı daha bundan sonra başımız üzərindən kimsə endirə bilməz! Azad etdiyiniz torpaqları kimsə yurdumuzdan bir daha ayrı sala bilməz!

Şəhidlər ölməz, unudulmaz! İllər keçsə də, gələcək nəsillər onları hər zaman böyük minnətdarlıq duyğusu ilə yad edəcəklər. Şəhidlərin davamçısı varsa, xatirələri hər yerdə anılırsa, deməli, onlar ölməyib, ürəklərdə daim yaşayırlar. Hər birimizin vətəndaşlıq borcudur ki, şəhidlikləri ilə bizə qələbə sevinci yaşadan bu oğullarımızı daim qəlbimizdə yaşadaq.

**İlahə RƏHİMOVA,**
**"Qəbələ"**

# XX əsrin faciəsi

***"Bütövlükdə, Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir".***

**Heydər Əliyev.**

XX yüz ildə milli haqları uğrunda mübarizə aparan xalqımız bir çox faciələrlə üzləşmişdir. Xalqımızın qarşılaşdığı belə faciələrdən biri də 26.02.1992-ci ildə baş vermiş Xocalı soyqırımıdır. Bəşər tarixində ən dəhşətli faciələri belə kölgədə qoyan Xocalı soyqırımı xalqımızın ürəyinə vurulan, heç zaman sağalmayan zaman-zaman dərinləşən, dövr edən yaradır. Bu acı, qanlı dava sözün ən böyük mənasında soyqırım yalnız Azərbaycanda yaşayanlara qarşı törədilmiş cinayət deyildi, bu bütün Dünya azərbaycanlılarına və böyük Türk dünyasına ünvanlanmış genosid siyasəti idi. Xocalı faciəsi təsadüfi deyildi. Dəhşətli Xocalı faciəsini törətməkdə ermənilərin məqsədi xalqımızı qorxutmaq və onun mübarizə əzmini qırmaq idi. Lakin mənfur düşmən məqsədinə nail ola bilmədi. Xalqımız öz ərazi bütövlüyü və dövlət suverenliyi uğrunda mübarizədə daha da gücləndi, qəhrəmanlıq və vətənpərvərlik nümayiş etdirdi.

Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Düşmən gülləsindən 76-sı uşaq olmaqla 487 nəfər yaralanıb, 1275 nəfər əsir götürülüb. Əsir götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil. Soyqırım qurbanlarından 56 nəfəri xüsusi amansızlıq və vəhşiliklə qətlə yetirilmişdir: onlar diri-diri yandırılmış, başları kəsilmiş, uşaqların dərisi soyulmuş, gözləri çıxarılmış, süngü ilə hamilə qadınların qarnı yarılmış, meyitlər təhqir edilmişdir.

Xocalı soyqırımı Azərbaycan tarixinin ən dəhşətli və ən faciəli səhifəsidir. Azərbaycan xalqı son 200 il ərzində zaman-zaman erməni millətçilərinin etnik təmizləmə, soyqırım siyasətinin qurbanına çevrilmişdir. Müxtəlif dövrlərdə və siyasi-ictimai şərtlər daxilində bütün faciələrə təkan verən əsas amillərdən biri və bəlkə də birincisi ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və bu iddiaların həmin dövrün müəyyən güclərinin dəstəyi sayəsində müxtəlif vasitələrlə həyata keçirilməsi olmuşdur. Xocalı soyqırımı ermənilər tərəfindən əvvəlcədən planlaşdırılmış və şəhər əhalisinin məhvinə yönəlmiş məqsədyönlü qanlı aksiya olmuşdur.

"Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanın preambulasında soyqırım yalnız "beynəlxalq hüquq üzrə, BMT-nin mahiyyətinə və məqsədlərinə zidd, sivil dünya tərəfindən cinayət hesab olunan cinayət" hesab edilmir, həmçinin "bütün tarixi dövrlərdə soyqırım bəşəriyyətin amansız böyük itkisi" sayılır.

Ermənistan rəsmiləri Xocalı əhalisinə qarşı törədilmiş cinayətlərə görə öz məsuliyyətini inkar edir, faktları açıq-aşkar saxtalaşdırır. Buna baxmayaraq, hətta ən incə təbliğat belə ermənilər tərəfindən törədilmiş soyqırımdan bəhs edən faktları heç vaxt təkzib edə bilməz. Xocalı faciəsi Azərbaycan Respublikasının hüquq-mühafizə orqanlarında olan kifayət qədər məlumatla yanaşı, çox saylı müstəqil mənbələr və bu faciənin şahidləri tərəfindən sənədləşdirilib. Azərbaycanın hüquq mühafizə orqanları Xocalı soyqırımında iştirak edənlərin müəyyənləşdirilməsi və axtarışa verilməsi sahəsində mühüm işlər görülmüşdür. Belə ki, Respublika Hərbi Prokurorluğu Dağlıq Qarabağ və ətraf ərazilərdə erməni işğalçı birləşmələri tərəfindən törədilən ağır cinayət hadisələri ilə bağlı cinayət işlərinin istintaqını üç istiqamətdə aparmışdır. Birinci istiqamət Xocalı, Qaradağlı, Meşəli faciəsi, ikinci istiqamət, əsir düşmüş, girov götürülmüş şəxslərə işgəncələr verilməsi, üçüncü istiqamət isə erməni işğalçılarının törətdikləri terror hadisələri ilə bağlıdır. Erməni işğalçılarının cinayət əməlləri Cinayət Məcəlləsinin soyqırıma görə məsuliyyət nəzərdə tutan 103-cü və digər maddələri ilə tövsif edilib, iş üzrə 206 təqsirləndirilən şəxs barəsində İnterpol vasitəsilə beynəlxalq axtarış elan edilib.

Bu gün Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması prosesində Xocalı soyqırımının tanıdılması xüsusi yer tutur. Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası da Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında uğurlu bir strategiyadır. Kampaniya bir çox ölkələrdə səmərəli şəkildə fəaliyyət göstərir və hazırkı tarixdə 120 mindən çox şəxs və 115 təşkilat onun fəaliyyətini dəstəkləyir.

Xocalı qətliamı insanlığa, bütünlükdə bəşəriyyətə qarşı törədilmiş bir cinayət idi. Prezident İlham Əliyevin səyi, Azərbaycanın artan nüfuzu, uğurlu diplomatiyası sayəsində dünya ictimaiyyəti başa düşür ki, Ermənistanın idarə olunan siyasətinin əsasında terrorçuluq və işğalçılıq siyasəti dayanır.

**Nərmin AĞAYEVA,**
**Qəbələ rayon prokurorunun köməkçisi.**

# Yaşıl işıq bələdçidir

**Ağlın mənzilində dağ-dərə keçdi**

Sənət var ki, sevilər seçilər, sənət var insanın yaşam tərzini ödəsin və maddi-məişət şəraitini yaxşılaşdırsın deyə seçilər. Sənət də var ki, başqa sənəti olmasına rəğmən qəlbində bir ali istək, hobbi kimi yaşadar və zaman keçdikcə bu istəyi gerçəkləşdirər. İnsanın daxilindəki istək gerçəkləşdikcə onun həyatı da rövnəqlənər və ömrünə ömür qatılar. Belə istəklərin gerçəkləşməsi və bu yoldakı çalışqanlıq insanın dərd-sərini, rastlaşdığı bütün çətinlikləri və pislikləri arxa plana çəkir. Bax, ona görə də hər zaman ağılın gücü güvəncli olmalı, insan mübariz bir ömür yolu yaşamalıdır. "Ağıl ana südü ilə verilməyibsə, özgəsindən də gözləmə",-aforizmindəki deyim isə arzuların gerçəkləşməsində həmişə yaşıl işıqdır.

**Xüsusi arzu**

20 illik bir məşğuliyyət, bir istəyi gerçəkləşdirərək insanların sağlamlığı keşiyində durmaq insan ömrünün ən gözəl həyat naxışıdır. Xalçalara, parçalara vurulan naxışlar insan ömrünün əsrarəngiz naxışlarına bənzəməz.

Tərkibi insan orqanizmi üçün faydalı maddələrlə zəngin təbii arı balı ən həssas mədə tərəfindən də rahatlıqla həzm edilir. Bal daxili orqanları sağlamlaşdırır, insana enerji verir, iradəni möhkəmləndirir, ovqatı yaxşılaşdırır, bədəni gümrahlandırır, cavanlığı qoruyub saxlayır, ömrü uzadır. Laboratoriya araşdırmalarına görə insan bədənindəki infeksiyalara səbəb olan bir sıra bakteriyalara qarşı bal daha təsirlidir.

Arıların ən gözəl canlı olduğunu düşündükcə onlardan qorxu hissi unudulur. Təbiətin gözəlliklərindən-florasından bütün şirinliyi toplayaraq möcüzə yaradır onlar. Belə



canlılarla ünsiyyətdə olan insanlar, onlara həsr olunan ömürlər də təqdirəlayiqdir.

**Hobbisi tanıtdı**

İlqar Cəlalov 1962-ci ildə Bunud kəndində doğulmuşdur. 1979-cu ildə orta məktəbi bitirdikdən sonra Rusiyada-Voronej Meşə Texniki Universitetinin meşə təsərrüfatı mühəndis ixtisası üzrə təhsil almışdır. Bu sahədə uzunmüddətli əmək təcrübəsi vardır. Ancaq arıçılıqla məşğul olmaq onun qəlbinin ən şirin arzusu idi. Bu arzu onu artıq 20 ildir ki, peşəkar arıçı kimi tanıtmışdır. Çətin, məsuliyyətli və çox diqqət tələb edən bir peşədir. Peşəsinin peşəkarı olmaq hər insana nəsib olmaz, gərək o peşəyə ürək verəsən...

**Arılar haqqda bilirsinizmi?**

Arıların müxtəlif növləri var, ancaq onlardan ən məşhuru bal arısıdır. Bal arıları dəstə şəklində pətəklərdə yaşayırlar. Bir pətəkdə 50000-ə qədər işçi arı yaşayır. Hər pətəkdə bir böyük dişi ana arı (və ya şah arı) olur. O, neştəri olmayan erkək arılarla cütləşir. Sonra ölürlər. Bütün işçi arılar dişidir, amma onlar nəsil verə bilmirlər. İşçi arı çox az, cəmi bir ay yaşayır və buna görə də ana arı yeni arıların əmələ gəlməsi üçün çoxlu yumurta qoymalıdır. Arabir pətəkdə yumurtalardan yeni ana arı çıxır. Bu zaman cavan ana arı pətəkdə olan işçi arıların təqribən yarısını götürərək pətəkdən çıxır və yeni yaşayış yeri - "ev" axtarmağa başlayır.

Arıçılar arılar üçün pətək düzəldir, onlara qulluq edir və onların düzəltdiyi balı yığırlar. Götürdüyü balın əvəzində arılara şərbət hazırlayıb verilir.

**Peşəsinin peşəkarı**

Arıçılıq özü bir elmdir, bu elmin əsası isə praktikayla qoyulur. Bu elmi öyrənmək istəyən kəs səbr, təmkin və qəlbinin istəyilə hərəkət edərsə, peşəsinin peşəkarı olar. Məhz İlqar Cəlalov kimi. Onunla söhbət zamanı bu peşə haqqında, qazandığı və gələcək arzuları haqqında öyrəndik. Bu arzuların məhz insan ömrü üçün əhəmiyyətli olduğunu bildikdə isə İlqar Cəlalovun uğurlarına sevindik. Artıq onu hər kəs ən gözəl peşənin ən məsuliyyətli peşəkarı kimi tanıyır.

İlqar Cəlalov həm köçəri, həm stasionar, həm də dədə-baba qaydası ilə-təknə arıçılığı ilə məşğul olur. O, arı südü yığımı, ana arı yetişdirmək və digər arıçılıq məhsullarının toplanması, emalı ilə məşğul olur.




Azərbaycanda keçirilən bütün konfransların-7-ci konfransa kimi iştirakçısı olmuş, fəxri yerlər tutmuş, adlar qazanmışdır.

Həmçinin 2010-cu ildən bu vaxtadək Türkiyədə, Rusiyada, Gürcüstanda keçirilən beynəlxalq konfranslarda, arıçılıq təlimlərində iştirak etmişdir.

2020-ci ildə keçirilən 6-cı Azərbaycan Beynəlxalq Arıçılıq konfransında təşkil edilmiş bal yarışmasında İlqar Cəlalov "iştirakçıların simpatiyası" kateqoriyasında I yer tutmuş və Türk balları nominasiyası üzrə birinciliyə görə sertifikatla və qızıl medalla təltif olunmuşdur.

2020-ci ilin yanvar ayında İsmayıllı rayon İvanovka qəsəbəsində keçirilən VII Beynəlxalq Arıçılıq Konfransında İlqar Cəlilov yenidən birinci yer tutaraq işinə peşəkar yanaşmasını bir daha sübut etmişdir.

İlqar Cəlalov bu peşənin daha da təkmilləşdirilməsi və insanların arı məhsullarından öz sağalamlığı üçün istifadə etməsi, həmçinin, Azərbaycan balının respublikamızdan kənarda da tanınması üçün səy göstərir. Onun arıçılıq və turizm haqqında düşüncələri də maraqlıdır. İlqar Cəlalov yaxın zamanlarda arıçılığın təbii üsulla alınması; təknə-kötük arıçılığı, həm səbətlərdə, ağac koğuşlarında, bir sözlə, təbiət qoynunda nümayişini təşkil etmək arzusundadır. Onun fikrincə bal və şanın, arı məhsullarından hazırlanan ekstratlar, mum, çiçək tozu, polem, vərəmin-sağlamlıq preparatları və ən əsas natural balı ölkəmizə gələn turistlərə nümayiş etdirmək daha maraqla qarşılanar.

Əgər arzu edib, o arzunun reallaşması üçün mübarizlik göstərilirsə, demək o kəsə nailiyyətlərin yaşıl işığı bələdçidir. Uğurlarınız bol olsun, peşəsinin vurğunu!

**Bibixanım İSAYEVA.**